# MƏMMƏDOV XANOĞLAN SADİQ OĞLU



Məmmədov Xanoğlan Sadiq oğlu 1975-ci il fevralın 13-də Neftçala rayonunun Qaraqaşlı kəndində dünyaya göz açmışdır. Səkkizinci sinfi bitirdikdən sonra təhsilini 104 saylı texniki-peşə məktəbində davam etdirmişdir. 1993-cü il aprelin 13-də Neftçala rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılır. O, topçu kimi əvvəlcə Səngəçalda, sonra isə Çuxanlı, Pirəküşkül və Qaladakı hərbi hissələrdə xidmət keçir. Sonra onu Murovdağa göndərirlər. Bir neçə dəfə döyüşlərdə iştirak edir. 1995-ci il mart ayının 15-də OMON-çulardan ibarət bir qrup cinayətkar dəstə Ağstafa bölgəsində dövlət çevrilişinə cəhd göstərdi. Dövlət başçısı, Ali Baş Komandan onlara silahı yerə qoymağı təklif etsə də, OMON-çular bu iddialarından əl çəkmədilər. Qardaş qanı töküldü. Milli Ordumuz işə qarışmalı oldu. Həmin gün Xanoğlan Məmmədov da cinayətkarların zərərsizləşdirilməsində yaxından iştirak edirdi. Dövlət çevirilişinə cəhdin qarşısının alınmasında onun müstəsna xidməti oldu. Lakin bu qarşıdurmada ömrü qırıldı. Qaraqaşlı kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Məmmədəv Xanoğlan Sadıq oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Neftçala rayon Mədəniyyət evi onun adını daşıyır.